UOT 37.01.

***Elçin Ələddin oğlu Babazadə,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TARİX DƏRSLƏRİNDƏ PROBLEMLİ TƏLİM

***Эльчин Аладдин оглу Бабазаде,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПРОБЛЕМНОЕ ОБУЧЕНИЕ НА УРОКАХ ИСТОРИИ

***Elchin Aladdin Babazadeh,***
*Azerbaijan State Pedagogical University*

# PROBLEMATIC TRAINING AT HISTORY LESSONS

**Xülasə.** Məqalədə mövzunun aktuallığı göstərilib. Problemin işlənmə səviyyəsinə münasibət bildirilib. Problemli təlim prosesində şagirdlərin müstəqil olaraq təfəkkürünün, fikri fəallığının inkişaf etdiyi göstərilib, dərsə maraqlarının oyandığı vurğulanıb.

***Açar sözlər:*** *Problem, təlim, situasiya, problemli şərh, problemli vəziyyət, fikri fəallıq*

**Резюме.** В статье была отмечена актуальность проблемы. Выражено отношение к уровню разработки проблемы. В ходе учебного процесса было подчеркнуто, что в процессе проблемного обучения, развивается мышление, мыслительная деятельность учащихся и повышается интерес к уроку.

***Ключевые слова:*** *проблема, обучение, ситуация, проблемное комментирование, проблемная ситуация, мыслительная деятельность*

**Summary.** The issue was highlighted in the article. The attitude to the problem of the problem was expressed. During the problem learning process it was emphasized that the students' independent thinking and intellectual activity were developed and that the interests of the lesson were upheld.

***Key words:*** *Problem, learning, situational, problematic interpretation, problematic situation, intellectual activity*

Problemli təlimin istiqaməti ondan ibarətdir ki, şagirdlər müəllimlər tərəfindən ardıcıl olaraq onlar üçün yeni olan problemlərin düzgün həllini axtarmaq prinsipinə cəlb edilirlər. Bunun da nəticəsində məktəblilər biliyi müstəqil əldə etməyi, əvvəllər qazanılmış biliyi təsdiq etməyi və yaradıcı fəaliyyət təcrübəsinə yiyələnməyi öyrənir. Problem nəyə deyilir? Bu elə bir təlim tapşırığıdır ki, onu həll etməyin yolları, yaxud nəticəsi şagirdə məlum deyil, lakin bu nəticəni, yaxud tapşırığı həll etməyin yolları üçün məktəblidə müəyyən bilik və bacarıq vardır. Başqa sözlə desək, şagirdə cavabı qabaqcadan məlum olmayan, lakin məktəblinin onu axtarıb tapmaq üçün imkanı olan sual tapşırıqdır.

Problemli situasiya və yaxud problemli şərait anlayışı özündə üç başlıca komponenti birləşdirir. Buraya daxildir: a) yaranmış şəraitdə məlum olmayan, lakin həlli zəruri olan məsələ, sual, problemlərin qarşıya çıxması; b) qarşıya qoyulmuş həmin problemi həll etmək üçün şagirdlərin kifayət qədər biliyə malik olması; c) problemi həll etmək üçün zəruriliyin meydana çıxması [1, s. 114].

Problemli situasiya və yaxud problemli şərait verilən tərifin ifadə tərzində müxtəlifliyin olmasına baxmayaraq, bir şey aydındır: problemli təlim mütləq dərsdə problemli şəraitin yaradılmasını tələb edir. Psixoloji ədəbiyyatda problemli şərait yaratmaq üçün xüsusi qaydalar müəyyən edilmişdir.

Birinci qayda: problemli şərait yaratmaq üçün şagirdlərin qarşısına elə bir əməli, yaxud nəzəri tapşırıq qoyulmalıdır ki, şagird onu yeri-

nə yetirərkən mənimsənilməsi zəruri olan yeni biliyi özü əldə etsin.

İkinci qayda: problemli tapşırıq şagirdlərin fərdi imkanlarına uyğun olmalıdır. Problemli tapşırığın çətinlik dərəcəsi iki əsas göstərici ilə ölçülə bilər: a) mənimsənilməli olan tədris materialının yenilik dərəcəsinə və b) ümumiləşdirilməsi dərəcəsinə görə

Üçüncü qayda: problemli tapşırıq mənimsənilməli olan tədris materialının izahından əvvəl verilməlidir. Əgər öyrənilən hadisə haqqında şagirddə kifayət qədər bilik yoxdursa, təlimdə ilk mərhələ bilikləri şagirdə çatdırmaqdan ibarətdir.

Dördüncü qayda: problemli tapşırıq: a) tədris məsələləri, b) suallar, c) əməli tapşırıqlar ola bilər.

Problemli məlumatların həlli şagirdlərdə axtarıcılıq bacarığını tərbiyə etməyi tələb edir. Bu da aşağıdakıları zəruri edir:

- məsələnin şərtində verilmiş bütün məlumatı, bu məlumatın fakt və dəlillərin bir-biri ilə vəhdət, yaxud ziddiyyət təşkil etdiyini aydınlaşdırmağı;

- artıq olan və çatışmayan faktları üzə çıxarmağı;

- hər bir nəticəni əsaslandırmağı;

- mümkün olan bütün faktların qurtardığını və onların kifayət qədər olduğunu təyin etməyi;

- məsələnin həllini və onun tapşırığı tələbinə uyğun gəldiyini yoxlamağı və s.

Beşinci qayda: eyni problemli şəraiti müxtəlif tipli tapşırıq verməklə yaratmaq olar.

Altıncı qayda: müəllim problemli şəraiti şagirdlərin əməli tədris tapşırığını icra edə bilməsinin, yaxud onun bu və ya digər faktı izah edə bilməsinin səbəblərini ona göstərmək yolu ilə ifadə edir [2, s. 59].

Problemli təlim dəlillərin xüsusi növünün – problemin yaradılmasına əsaslanır, ona görə də problemli vəziyyətlər zənciri kimi təqdim olunmalı materialın didaktik məzmununun adekvat qurulmasını tələb edir. Problemli təlimin texnologiyası ilə işləyən zaman müəllim qarşılıqlı əlaqədə olan üç mərhələyə xüsusi diqqət yetirməlidir:

1) Problemli vəziyyətin həllinə fikirlərin irəli sürülməsi;

2) Problemin həllinin axtarışı, əsaslandırma, faktiki materialın, bazasının öyrənilməsi, problemin dərk edilməsi, materialın ümumiləşdirilməsi;

3) Müzakirə, əsaslandırma, dəlil, sintez, ümumiləşdirmə, nəticələr.

Tarix dərslərində problemli təlimin texnologiyası obyektiv zərurətdir, bunun bir sıra səbəbləri vardır:

1) Müasir tarix problemlərinin müzakirəsi, I Pyotrun fəaliyyətinin qiymətləndirilməsi haqqında qərbçilərin və slavyanofillərin mübahisəsi, Fevral (1917-ci il) inqilabından sonra Rusiya cəmiyyətinin inkişaf alternativləri üzrə, inqilab, yaxud çevriliş (1917-ci ilin oktyabrı) haqqında müzakirələr hələ də davam edir.

2) Yuxarı siniflərdə tarixin tədrisində mərkəzləşdirilmiş sistemin tətbiqi 5-9-cu siniflərdə öyrənilmiş materialın təkrarlanmasından və əsas mərkəzi problemlər üzrə işdən çəkinməyi tələb edir. Təlim tarixi faktların mahiyyətinin, səbəb – nəticə əlaqələrinin və münasibətlərinin, tarixi inkişafın qanunauyğunluqlarının aşkar edilməsi üzərində qurulur.

Şagirdlərin faktları, hadisələri, təzahürləri tarixi sənədlər, mənbələr, memuarlar, sənədli ədəbiyyat əsasında öyrənməsinə böyük əhəmiyyət verilir. Dərsdə problemli vəziyyət yaradarkən, müəllim ondan çıxış yollarını da müəyyən edir.

Problemli vəziyyətin yaradılması zamanı müəllim aşağıdakı üsullardan istifadə edir:

- şagirdləri hadisələrin başqa cür inkişaf etdiyi fərziyyəsi ilə tanış edir;

- hadisələrin qiymətləndirilməsində gözlənilməz dönüş əks etdirilən sənəddən bir hissəni danışır və ya oxuyur;

- tarixi şəxsin və ya hadisənin qiymətləndirilməsinin müvafiq gəlmədiyini göstərir;

- tarixi hadisələrin (SSRİ-də 1991-ci il hadisələri) mahiyyətində qeyri-müəyyənliyi göstərir; - 1939-cu ildə bir-birinə hücum etməmək haqqında Almaniya ilə SSRİ arasında Paktın və b. təkzibi ilə tanış edir. Şagirdlərin tədris fəaliyyətini təşkil edərək, müəllim aşağıdakı formalardan istifadə edir: kollektiv, qrup, fərdi. [3,s. 548]

Problemli təlim, yəni təlim prosesində problemli vəziyyət yaradıb şagirdlərin təfəkkürünü, düşüncə tərzini inkişaf etdirmək ideyasının kökləri çox qədimdir. Problemli təlim prosesində şagirdlər müstəqil olaraq fikri fəallıq üsullarından istifadə edir, eksperiment qoyur,

müşahidələr aparır, onların nəticələrini təhlil edir, düşünür, fikir mübadiləsi edir, qaydaları, qanunları özləri üçün kəşf edirlər. Problemli təlim şagirdlərdə dərsə maraq oyadır, şagirdlərin təşəbbüskarlığını inkişaf etdirir, hadisələrin daxili mahiyyətini, onların arasındakı qarşılıqlı əlaqələri başa düşməyə kömək edir, hadisə və proseslərin qiymətləndirilməsinə dialektik yanaşmağı öyrədir, prosesi həll etmək yollarını tapmaq bacarığını formalaşdırır, elmi idrak metodlarına alışdırır [4, s. 65].

**Mövzunun aktuallığı.** Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Bu mövzu kifayət qədər araşdırılmadığı üçün tədqiqat obyekti kimi bir çox tədqiqatçıların diqqət mərkəzindədir.

**Məqalənin nəzəri əhəmiyyəti ondan ibarətdir ki,** irəli sürülən müddəa və yeniliklər tarixin tədrisi metodikası elmini yetərincə zənginləşdirir.

**Nəticə olaraq** deyə bilərik ki, problemli təlimin təhlilindən aydın olur ki, bu mövzu həmin fənnin tədrisini təkmilləşdirməyə motiv yaradır.

**Məqalənin praktik** əhəmiyyəti ondan ibarətdir ki, məqalənin məzmunundan və əldə olunan nəticələrdən ümumtəhsil məktəblərinin müəllimləri pedaqoji fəaliyyətdə istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Əmirov M. Orta məktəbdə tarixin tədrisinin aktual problemləri'. Bakı, 1947.
2. Mehdiyev Ə. Tarixin tədrisi metodikasına dair. Bakı, 1958.
3. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası. Bakı, 2011.
4. Nəzərov A. Müasir təlim texnologiyaları. Bakı, 2012.

**E- mail:** elcin_babazade@list.ru

**Rəyçilər**: *dos.*Q. Bəşirov
*dos*. A. Piriyeva
**Redaksiyaya daxil olub:**03.12.2018.